

Milli Məclisin Səhiyyə komitəsi qanunlara dəyişiklikləri müzakirə edib

2



Akademik Zərifə Əliyevanın xatirəsi yad olundu

4



Ananın qanı körpənin sağlamlığını müəyyənləşdirməyə imkan verəcək

3


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 07-08 (623) 30 aprel 2017-ci il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Tibb xidməti IV İslam Həmrəyliyi Oyunlarına tam hazırdır



5

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva: «İndi əsas vəzifə səhiyyə sistemində çalışanların peşəkarlığını daha da artırmaqdır»



2

## Əlilliyin qiymətləndirilməsi sahəsində problemlər aradan qaldırılır




6


Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az


## Autizm barədə məlumatlandırma aylığı



8

*Афоризм*

*Тишина – язык Бога, все остальное – плохой перевод.*

*Джалаладдин Руми*

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva: «İndi əsas vəzifə səhiyyə sistemində çalışanların peşəkarlığını daha da artırmaqdır»

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçko ilə görüşüb.**

Qonağı salamlayan Azərbaycanın Birinci vitse-prezidenti İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti ilə qurulan əməkdaşlıqdan, bu təhsil ocağının Bakıdakı filialının fəaliyyətindən danışıb, filialın yaradılmasının çox uğurlu layihə olduğunu deyib.

Son illərdə ölkəmizin səhiyyə sistemində mühüm işlərin görüldüyünü, bu sahədə böyük nailiyyətlərin əldə olunduğunu vurğulayan Mehriban Əliyeva bildirib ki, indi əsas vəzifə səhiyyə sistemində çalışanların peşəkarlığını daha da artırmaqdır. Bu baxımdan İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının fəaliyyətinin əhəmiyyətinə toxunan Birinci vitse-prezident burada təhsil alan tələbələrin gələcəkdə Azərbaycanın səhiyyə sisteminə töhfələr verəcəyinə əminliyini ifadə edib.



«Təhsil və səhiyyə bütün ölkələrdə prioritet sahələrdir», - deyən Azərbaycanın Birinci vitse-prezidenti ölkəmizdə bu sahələrə göstərilən dövlət qayğısını vurğulayıb. O bu gün Azərbaycanda dünyanın aparıcı ali təhsil ocaqlarının filiallarının fəaliyyət göstərdiyini qeyd edib, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti ilə əməkdaşlığı genişləndirmək üçün yaxşı perspektivlərin olduğunu bildirib.

Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçko Azərbaycanın Birinci vitse-prezidenti ilə görüşməkdən məmnun olduğunu vurğulayıb, bu ali təhsil ocağının Bakı filialının fəaliyyətinə verdiyi qiymətə görə minnətdarlığını bildirib. Universitetin nüfuzlu professor və müəllim heyətinin Bakıdakı filialda tələbələrə dərs keçdiyini deyən Pyotr Qlıboçko filialda olduğunu, tələbələrlə görüşdüyünü və onların burada təhsil almaqdan məmnun qaldıqlarını diqqətə çatdırıb. Rektor bildirib ki, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının çox müasir maddi-texniki bazası var. O, filialda III kursdan VI kursadək təhsil alan tələbələrin universitetdə strukturlaşmış imtahan verəcəklərini və bunun tələbələrin peşəkarlığının artırılması üçün böyük əhəmiyyət daşıdığını qeyd edib.

# Azərbaycan – Cibuti səhiyyə əməkdaşlığının perspektivləri müzakirə edildi

**Səhiyyə Nazirliyində nazir Oqtay Şirəliyev ölkəmizdə rəsmi səfərdə olan Cibuti Respublikasının səhiyyə naziri Cama Elmi Okiehin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, əvvəlcə qonaqlar ümummilli lider Heydər Əliyev və görkəmli akademik Zərifə Əliyevanın məzarını, sonra isə Şəhidlər Xiyabanını ziyarət ediblər.

Səhiyyə Nazirliyində keçirilən görüşdə Cibuti Respublikasının səhiyyə naziri Azərbaycanda 2017-ci ilin «İslam Həmrəyli İli» elan edilməsinin bütün İslam dünyası ölkələrində rəğbətlə qarşılandığını xüsusi olaraq vurğulayıb. Qonaq həmçinin İslam Həmrəyli Oyunlarının Azərbaycanda keçirilməsini ölkə rəhbərliyinin sağlam həyat tərzinin təbliği və ölkədə aparılan sosialyönümlü siyasətin bariz nümunəsi olduğunu bildirib.

Görüşdə ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın qurulması, Azərbaycan səhiyyəsinin qazandığı müsbət təcrübədən cibutili həmkarların istifadəsi, azərbaycanlı həkimlərin həmin ölkədə qısa müddətdə cərrahi əməliyyatlar aparması barədə təkliflər verilib.

Səhiyyə naziri Oqtay Şirəliyev son illər ərzində səhiyyə və tibb elmi sahəsində görülən işlər və əldə olunan uğurlar barədə qonağa məlumat verib.

Nazir Cama Elmi Okieh və Cibuti nümayəndə heyəti həmçinin K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunda olub. Tibb müəssisəsinin rəhbərliyi ilə görüşdə qonağa Azərbaycanda dövlətin sosialyönümlü siyasətinin əsas istiqamətlərindən və səhiyyənin prioritet sahələrindən biri olan uşaqların sağlamlığının qorunması üzrə görülən işlərdən danışılıb.

Digər tanışlıq görüşü Azərbaycan Tibb Universitetinın (ATU) rəhbərliyi və professor-müəllim heyətinin iştirakı ilə keçirilib. Qonaqlara ölkəmizdə tibbi təhsildə aparılan islahatlar, Boloniya sisteminə keçid və tibbi rezidentura sistemi barədə məlumat verilib. Cibutili tələbələrin ATU-da təhsil almaq imkanlarına dair təkliflər qəbul edilib.

Milli Onkologiya Mərkəzində keçirilən görüşlərdə xərçəngin erkən aşkarlanması üzrə Azərbaycanda səyyar briqadalarla mütəmadi monitorinqlərin aparılmasından, xəstələrin müalicəsi üzrə Dövlət Proqramından söz açılıb, Azərbaycanlı mütəxəssislərin Cibutiyə qısa müddətli ezamiyyətə gedərək, orada nəzəri-təcrübi kursların təşkili haqqında təkliflər səsləndirilib.

Milli Oftalmologiya Mərkəzində keçirilən görüşdə Azərbaycan Beynəlxalq İnkişaf Agentliyinin rəhbərliyi də iştirak edib. Həmin təşkilatının xətti ilə Azərbaycanlı oftalmoloqlar, Cibuti də daxil olmaqla, Afrikanın bir sıra ölkələrində oftalmoloji cərrahi əməliyyatlar aparıblar. Həmin layihənin davamı və Azərbaycanlı mütəxəssislərin Cibutiyə qısa müddətə ezam olunaraq nəzəri-təcrübi kurslar təşkil etməsi barədə müzakirələr aparılıb.

Səfər proqramı çərçivəsində Cibuti nümayəndə heyəti Bakı Sağlamlıq Mərkəzində də olub.

Görüşlərdə Azərbaycanın Cibuti səhiyyəsinə texniki və maddi yardımı məsələləri müzakirə edilib, bir sıra tibbi cihaz və xəstəxana ləvazimatının həmin ölkəyə verilməsi barədə razılaşma əldə olunub.

# Milli Məclisin Səhiyyə komitəsi qanunlara dəyişiklikləri müzakirə edib

**Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclasında komitənin sədri Əhliman Əmiraslanov əvvəlcə gündəlikdəki məsələlər barədə məlumat verib. İclasda «Dərman vasitələri haqqında», «Yeyinti məhsulları haqqında», «Reklam haqqında» Qanunlarda və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barəsində qanun layihələri müzakirəyə təqdim olunub.**



Komitə sədri «Dərman vasitələri haqqında» Qanuna təklif edilən dəyişikliklərin mahiyyəti barədə danışaraq bildirib ki, bu Qanuna əlavə ediləcək 4.8-ci maddəyə əsasən, normativ hüquqi aktların, o cümlədən texniki normativ hüquqi aktların tələblərinə cavab verməyən, keyfiyyətsiz, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş dərman vasitələrinin satışı, satış məqsədilə saxlanması və ya idxalı qadağandır.

Qanuna edilən digər dəyişikliyə əsasən isə, 16-1.2.7-ci maddədə "bioloji aktiv əlavə və qida əlavəsi" sözləri "bioloji fəallığa malik qida əlavəsi" sözləri ilə əvəzlənəcək. Eyni dəyişiklik «Yeyinti məhsulları haqqında» Qanunun 7-ci maddəsinin beşinci hissəsində də edilir.

İclasda İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsi də müzakirə olunub. Məcəllənin 221.8 maddəsinə təklif olunan dəyişikliyə əsasən, üzərində və istifadə təlimatında (içlik vərəqləri̇ndə) «dərman vasitəsi deyildir» sözləri yazılmayan bioloji fəallığa malik qida əlavələrinin istehsalına, idxalına və ya satışına görə vəzifəli şəxslər 500 manatdan 800 manatadək, hüquqi şəxslər 1500 manatdan 2000 manatadək məbləğdə cərimə ediləcək. 221.9-cu maddəyə təklif olunan dəyişikliyə əsasən isə, bioloji fəallığa malik qida əlavələrinin həkim reseptinə yazılmasına görə vəzifəli şəxslər 50 manatdan 100 manatadək, hüquqi şəxslər 150 manatdan 200 manatadək məbləğdə cərimə ediləcək.

Qeyd olunub ki, «Reklam haqqında» Qanuna əlavə edilən yeni 30.7-ci maddəyə əsasən, bioloji fəallığa malik qida əlavələrinin reklamında onların dərman vasitəsi olmadığı haqqında məlumat verilməlidir.

Müzakirələrdən sonra qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Yeni Elektron Xidmət istifadəyə verildi

Səhiyyə Nazirliyinin əhaliyə təqdim etdiyi elektron xidmətlərin siyahısına daha biri əlavə olunub. Belə ki, «Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üçün müraciət və sənədlərin qəbulu» elektron xidmətinin istifadəsini asanlaşdırmaq məqsədi ilə bu xidmət yenidən hazırlanıb və vətəndaşların istifadəsinə verilib.

Yeni elektron xidmətin yaradılması və istifadəyə verilməsi Səhiyyə Nazirliyinin «Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı»na, onun icrası üzrə 2017-ci il üçün İş Planı"na, Səhiyyə Nazirliyinin «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın icrasına dair Tədbirlər Planı»na uyğun surətdə həyata keçirilib.

# Seçenov Universitetinin rektoru Bakı filialında müəllim və tələbələrlə görüşüb



**İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (BMDTU) Bakı filialında Universitetin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki Pyotr Qlıboçko ilə görüş keçirilib.**

İclasda BMDTU Bakı filialının rektoru, professor Əziz Əliyev Universitetin Bakı filialının yaradılması tarixindən danışıb, bu işdə Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rolunu qeyd edib.

Akademik P.Qlıboçko toplantı iştirakçılarına Universitetin adının dəyişməsi barədə məlumat verib. O bildirib ki, bundan sonra Universitet «İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti Federal Dövlət Müstəqil Təhsil Müəssisəsi (Seçenov Universiteti)» adlanacaq.

Rektor P.Qlıboçko deyib ki, Bakı filialının tələbələri üçüncü kurs başa çatanda Moskvada Seçenov Universitetinin klinik bazalarında təcrübə keçəcəklər. Filialda klinik fənlər Azərbaycan klinikalarının bazasında Moskvadan gəlmiş müəllimlər tərəfindən tədris ediləcək.



Akademik qeyd edib ki, filialın yaradılması Azərbaycanda tibb təhsilini təkmilləşdirmək, dünyanın nüfuzlu təhsil mərkəzləri ilə əlaqələri genişləndirmək, habelə Azərbaycan vətəndaşlarının Rusiyanın tibb təhsili ocaqlarında təhsil almaq arzusunu təmin etmək məqsədi daşıyır.

Görüşün sonunda akademik P.Qlıboçko tələbələrə tibb elminin mənimsənilməsində uğurlar arzu edib.



# AIDA Cibuti xalqına göstərilən səhiyyə xidmətlərini yüksəldəcək

**Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) direktoru Əşrəf Şıxəliyev ölkəmizdə səfərdə olan Cibuti Respublikasının səhiyyə naziri Cama Elmi Okieh ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Ə.Şıxəliyev AIDA-nın İslam İnkişaf Bankı ilə birgə Afrika ölkələrində həyata keçirdiyi «Görmə qabiliyyətinin qarşısı alına bilinən itirilməsi ilə mübarizə» kampaniyası barədə məlumat verib. Tərəflər bu kampaniyanın Cibuti Respublikası üçün əhəmiyyətini qeyd edib, Azərbaycanın bu sahədə töhfəsinin artırılmasına dair müzakirələr aparıblar. Bununla yanaşı, görüşdə Cibuti xalqına səhiyyə sahəsində göstərilən xidmətlərin yüksəldilməsi məqsədilə Azərbaycan ilə müxtəlif istiqamətlərdə əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb.

**Səhiyyə Nazirliyi, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Kardiologiya və Pediatriya kafedraları, K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Respublika Uşaq Xəstəxanası və Rostropoviç-Vişnevskaya Fondu birgə dəstək və təşkilatçılıq sayəsində «Anadangəlmə ürək qüsurlarının antenatal və neonatal dövrdə diaqnostikasında exokardioqrafiyanın əsasları» mövzusunda təkmilləşdirmə kursu keçiriblər.**

# Anadangəlmə ürək qüsurlarının erkən diaqnostikası üzrə təlimlər keçirilib

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, 20 günlük nəzəri və praktiki kurslara pediatrik və neonatal kardioloqlar, pediatrik reanimatoloqlar, exokardioqrafiya ilə maraqlanan pediatr və neonatoloqlar, habelə neonatal və pediatrik kardiologiyaya dair biliklərini təkmilləşdirmək istəyən kardiocərrahlar və kardiologiya ixtisası üzrə təhsil alan sonuncu kurs rezidentləri qatılıblar.

Yerli və beynəlxalq mütəxəssislərin iştirakı ilə həyata keçirilən təlimdə anadangəlmə ürək qüsurlarının diaqnostikasında exokardioqrafiyanın tətbiqi, antenatal dövrdə (ana bətnində) ürək qüsurlarının diaqnostikası, yenidoğulmuşlarda exokardioqrafiya aparılması qaydaları, invaziv prosedurlar zamanı ondan istifadənin əsasları, sadə və mürəkkəb anadangəlmə ürək qüsurlarında müayinələrin aparılması alqoritmləri və digər mövzular müzakirə edilib.

İki mərhələdən ibarət təlim kursunda müdavimlər nəzəri biliklər almaqla yanaşı, «Yenidoğulmuşlarda və körpələrdə exokardioqrafiyanın aparılmasına dair praktikum» da keçiblər.

# «Səhiyyə sisteminin idarə olunması» təlim blokuna start verilib

**Paytaxtda və regionlarda fəaliyyət göstərən özəl tibb və əczaçılıq fəaliyyəti subyektlərinin, özəl tibbi praktika ilə məşğul olan vətəndaşların çoxsaylı müraciətlərini, müasir dövrdə səhiyyənin davamlı inkişafını, son vaxtlar əhalinin keyfiyyətli tibbi və əczaçılıq xidmətlərinə artan ehtiyaclarını nəzərə alaraq, həmin xidmətlərin daha da təkmilləşdirilməsi üçün Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzində silsilə təlimlərə başlanılıb.**

Nazirliyin mətbuat xidməti xəbər verir ki, təlimlərdə tibb və əczaçılıq müəssisəsi rəhbərləri, kadr üzrə məsul işçilər, həkimlər, marketinq üzrə mütəxəssislər, səhiyyə sektorunda çalışan və həmin təlimlərə maraq göstərənlərin iştirakı üçün tam şərait yaradılıb.

Bundan başqa, «Tibb müəssisələrinin strateji idarəedilməsi», «Tibbi xidmətin təşkili və liderlik», «Tibb müəssisələrinin maliyyələşdirilməsi və keyfiyyətin yaxşılaşdırılması», «Kadr resurslarının idarə olunması», «Tibb müəssisələrində infeksion nəzarət tədbirləri», «Dərman vasitələrindən rasional istifadə» və «Dərman vasitələrinin tanıtımı və təbliği» blokları üzrə təlimlərin davamlı şəkildə təşkil olunması nəzərdə tutulub.

Təlimlərin keçirilməsində məqsəd beynəlxalq səhiyyə sistemində müasir inkişaf tendensiyalarının vüsət aldığı dövrdə səhiyyənin davamlı inkişafını təmin etməkdən, son vaxtlar əhalinin keyfiyyətli tibbi və əczaçılıq xidmətlərinə artan ehtiyaclarına uyğun olaraq həmin xidmətlərin daha da təkmilləşdirilməsini düzgün istiqamətləndirməkdən, tibb sahəsində çalışan mütəxəssislərin ixtisas səviyyəsini artırmaqdan ibarətdir.




# Ananın qanı körpənin sağlamlığını müəyyənləşdirməyə imkan verəcək

**Müxtəlif səbəblərdən yaranan genetik problemlər xəstə uşaqların doğulmasına gətirib çıxarır. Aparılan araşdırmalar həmin genetik xəstəliklərin durmadan artdığını göstərir.**

Azərbaycan və Türkiyədən olan bir qrup alim və həkimin iştirakı ilə Bakıda keçirilən birgə konfransda bu məsələlər müzakirə olunub və beynəlxalq diaqnostikada irsi xəstəlikləri müəyyənləşdirən yeni texnologiyalar təqdim edilib.

Türkiyənin Genetik Xəstəliklərin Diaqnostikası Mərkəzinin Azərbaycan üzrə rəsmi nümayəndəsi Ersadik Turan və qardaş ölkədən gələn həkim Ayşə Saylı dünyaya gələcək uşağın genetik sağlamlıq vəziyyətinin doğulmamışdan əvvəl müəyyən edilməsinin tibbdə yenilik olduğunu, yeni texnologiyalar əsasında aparılan testlərin buna imkan verdiyini söyləyiblər. Onların verdiyi məlumata görə, yeni test vasitəsilə ananın qanından götürülən nümunə əsasında körpənin gələcək sağlamlığı haqqında məlumat əldə etmək mümkündür. Bunun sayəsində Daun sindromlu, yaxud digər anomaliyalı körpələrin dünyaya gəlməsi ilə bağlı qabaqcadan düşünülmüş qərar vermək imkanı yaranır.

# Dünya Səs gününə həsr olunmuş tədbirlər keçirilib

**Hər il aprelin 16-sı Dünya Səs günü kimi qeyd olunur. Bu günün keçirilməsində əsas məqsəd ictimaiyyətə səsin rolu və əhəmiyyəti, yaranan problemlərin müalicə-profilaktik həlli prinsipləri haqqında informasiya verməkdir.**



Son 3 ildə olduğu kimi, bu il də ölkəmizdə Dünya Səs günü münasibətilə müxtəlif tədbirlər təşkil olunub. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Qulaq-burun-boğaz xəstəlikləri kafedrası nəzdində «Səs laboratoriyası»nın rəhbəri, tibb üzrə fəlsəfə doktoru Ramil Həşimlinin verdiyi məlumata görə, Dünya Səs günü münasibətilə üç tədbir keçirilib.

Bunlardan biri Milli Konservatoriyada «Səs: tibbin və incəsənətin kəsişdiyi nöqtə» mövzusunda seminar, digəri «Larinqologiyanın «başağrısı» – qırtlaq iflicləri» mövzusunda elmi-praktik konfrans, üçüncüsü isə Avroviziya mahnı müsabiqəsinin qalibi Eldar Qasımovun «Volume» vokal məktəbində «Professional səs» mövzusunda konfrans olub.

Həmin tədbirlərdə tibb üzrə fəlsəfə doktorları Ramil Həşimli, Afaq Abbasova və Araz Əliyev, həkimlər Dilşad Şadlinskaya və Kamil Süleymanov səs problemlərinin müayinə və müalicəsi barədə mühazirələr oxuyublar.

Çıxış edən qonaqlar bu tədbirlərin əhəmiyyətini, bu işin lazımlı olmasını qeyd ediblər, belə tədbirlərin davamlı təşkil olunması arzusunu bildiriblər.

# Akademik Zərifə Əliyevanın xatirəsi yad olundu

**Azərbaycan oftalmologiya elminin görkəmli nümayəndəsi, Milli Elmlər Akademiyasının bu sahədə ilk akademiki, fədakar alim, qayğıkeş insan Zərifə xanım Əliyevanın anadan olmasından 94 il keçir.**

Bu münasibətlə görkəmli alimin doğum günündə səhiyyə naziri Oqtay Şirəliyev başda olmaqla Səhiyyə Nazirliyinin əməkdaşları, Azərbaycanın tibb ictimaiyyətinin nümayəndələri və elm xadimləri onun xatirəsini ehtiramla yad ediblər. Ümummilli lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın xatirəsini anmaq üçün Fəxri xiyabana gələn tibb işçiləri onların məzarları üzərinə tər çiçəklər düzüblər.

## Milli Oftalmologiya Mərkəzi

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində görkəmli alimin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş «Oftalmologiyanın aktual



məsələləri» elmi konfransı keçirilib.

Toplantını giriş sözü ilə açan Milli Oftalmologiya Mərkəzinin direktoru, professor Elmar Qasımov akademik Zərifə xanım Əliyevanın misilsiz xidmətlərini, göz xəstəliklərinin müalicəsi sahəsində gördüyü işləri xatırlayıb.

Mərkəzin elmi işlər üzrə direktor müavini Hicran Namazova oftalmologiya elminin inkişafında Zərifə xanım Əliyevanın fəaliyyətindən, xüsusilə traxomanın ləğvi ilə əlaqədar axtarışlarından danışıb, onun araşdırmalarının SSRİ Tibb Elmləri Akademiyası tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.

Konfransda Rusiya Federasiyası Başqırdıstan Elmlər Akademiyasının müxbir üzvü, tibb elmləri doktoru, prosessor Muxarram Bikbov «Ültrabənövşəyi krosslinkinq: keçmişi, bu günü və sabahı» mövzusunda məruzə edib. Milli Oftalmologiya Mərkəzinin həkimləri, tibb üzrə fəlsəfə doktorları Fərəh Abduləliyeva, Cəmil Həsənov, Fidan Ağayeva və başqalarının qlaukoma, qohum nikahları ilə göz patologiyalarının əlaqəsi, diabetik retinopatiyalar və digər aktual mövzularda məruzələri də maraqla dinlənilib.

## Azərbaycan Tibb Universiteti

Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümü münasibətilə Azərbaycan Tibb Universitetində (ATU) Nəsimi Rayon İcra hakimiyyə-




ti və ATU-nun birgə təşkilatçılığı ilə «İnsanlara nur bəxş edən alim» adı altında tədbir keçirilib.

Toplantıda ATU-nun rektoru, professor Gəray Gəraybəyli oftalmoloq-alim Zərifə Əliyevanın tibb elminin inkişafında əvəzsiz xidmətlərindən, elmi-pedaqoji və ictimai fəaliyyətindən, həkimlərin yeni nəslinin yetişməsinə verdiyi böyük töhfələrdən söz açıb.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov Əməkdar Elm Xadimi Zərifə xanım Əliyevanın həyat və elmi fəaliyyəti barədə danışıb. Qeyd edib ki, keçmiş SSRİ-də SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın alim kimi, akademik Zərifə xanım Əliyevanın adı oftalmologiya elminin tarixinə düşüb.

Digər çıxış edənlər Zərifə xanım Əliyevanın həyat və fəaliyyətinin müxtəlif məqamlarından söz açıb, onun Azərbaycan səhiyyəsinə verdiyi töhfələrin əhəmiyyətini vurğulayıblar.

Tədbir çərçivəsində Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən fiziki qüsurlu şagirdlərin təhsil aldığı 11 və 268 saylı xüsusi məktəblərin şagirdlərinin pulsuz tibbi müayinəsi təşkil edilib, ehtiyacı olan uşaqlara eynəklər təqdim olunub.

## Mərkəzi Neftçilər Xəstəxanası

Tanınmış oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümü münasibətilə Mərkəzi Neftçilər Xəstəxanasında (MNX) pulsuz göz müayinələri keçirilib.

MNX və Xətai Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən xeyriyyə tədbirində 200-dən çox vətəndaş – şəhid ailələri, Qarabağ və Böyük Vətən müharibəsi, 20 Yanvar əlilləri, ahıl və kimsəsiz qocalar müayinədən keçirilib. Göz xəstəlikləri aşkar olunan 10 nəfər pulsuz əməliyyat olunmaq üçün qeydiyyata götürülüb.



Xəstəxanada görkəmli akademikin xatirəsinə həsr olunmuş yığıncaqda Mərkəzi Neftçilər Xəstəxanasının baş direktoru Leyla Seyidbəyova, Xətai Rayon İcra Hakimiyyəti başçısının müavini Jalə Abdıyeva və başqaları Zərifə xanımın gözəl ziyalı, xeyirxah və nəcib insan, peşəkar həkim, istedadlı oftalmoloq, eyni zamanda, vəfalı ömür-gün yoldaşı və qayğıkeş ana kimi yaddaşlara həkk olunduğunu bildiriblər.

## Pirallahı rayonunda qanvermə aksiyası

Bakının Pirallahı rayonunda Rayon İcra Hakimiyyətinin, Yeni Azərbaycan Partiyasının Pirallahı rayon təşkilatının və 10 saylı Birləşmiş Şəhər Xəstəxanasının (BŞX) təşkilatçılığı ilə görkəmli elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 94-cü ildönümü münasibətilə qanvermə aksiyası keçirilib.

B.Eyvazov adına Hematologiya və Transfuziologiya İnstitutu Mərkəzi Qan Bankının həkim briqadasının həyata keçirdiyi qanvermə aksiyasında 300-ə yaxın rayon sakini talassemiyalı və hemofiliyalı xəstələrə yardım üçün qan verib.

Tədbirdə çıxış edənlər və aksiya çərçivəsində nəcib təşəbbüsə qoşulanlar Zərifə xanımın xalq qarşısında xidmətlərini xatırlayıb, insanlara həyat işığı bəxş edən həkimin unudulmaz xatirəsinə dərin hörmət və ehtiramlarını bildiriblər.



## Suraxanı tibb işçiləri alimi yad etdilər

Suraxanı rayonundakı 15 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.

Toplantıda 15 nömrəli BŞX-nın baş həkimi Arif Məmmədov, 24 nömrəli BŞX-nın baş həkimi Azər



Məmmədov, Suraxanı Rayon İcra Hakimiyyətinin əməkdaşı Nazim Fətullayev, həkimlər Dürdanə Kəngərli və Fatma Nuriyeva tibb elminə böyük töhfələr vermiş görkəmli alimlər sırasında Zərifə xanım Əliyevanın tutduğu mövqedən danışıb, qeyd ediblər ki, bütün elmi fəaliyyətini oftalmologiyaya həsr edən yorulmaz alimin apardığı tədqiqatlarının nəticələri, elmi irsi bu gün də öz əhəmiyyət və aktuallığını saxlamaqdadır.

## Sabunçu rayonunda qanvermə aksiyası

Sabunçu Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası rayon təşkilatının birgə təşkilatçılığı ilə görkəmli elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümü münasibətilə ənənəvi qanvermə aksiyası keçirilib.



Rayon rəhbərlərinin, bələdiyyə və ictimaiyyət nümayəndələrinin və fəal gənclərin iştirak etdiyi aksiyaya qoşulanlar görkəmli alimin xalq qarşısındakı xidmətlərini xatırlayaraq, insanlara həyat işığı bəxş edən həkimin, nəcib və xeyirxah insanın unudulmaz xatirəsinə dərin hörmət və ehtiramlarını bildiriblər.

B.Eyvazov adına Hematologiya və Transfuziologiya İnstitutu Mərkəzi Qan Bankının həkim briqadasının həyata keçirdiyi qanvermə tədbirində 350-dən çox rayon sakini iştirak edərək talassemiyalı və hemofiliyalı xəstələrə yardım üçün könüllü olaraq qan veriblər.

# Tibb xidməti IV İslam Həmrəyliyi Oyunlarına tam hazırdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 18 sentyabr tarixli «IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında» Sərəncamına uyğun olaraq, səhiyyə naziri Oqtay Şirəliyevin «2017-ci ildə Bakı şəhərində keçiriləcək IV İslam Oyunlarının tibbi təminatı barədə» əmri ilə bu tədbirə tibb xidmətini yüksək səviyyədə təşkil etmək məqsədi ilə müvafiq Təşkilat Komitəsi yaradılıb. Həmin əmrə əsasən, yarış iştirakçıları və qonaqlara tibbi yardımın göstərilməsi üçün Bakı şəhərində iki böyük tibb müəssisəsi – Kliniki Tibbi Mərkəz və Bakı Sağlamlıq Mərkəzi müəyyənləşdirilib.**

## Kliniki Tibbi Mərkəz

İslam Oyunlarına tibbi yardım göstərilməsi ilə əlaqədar aparılan hazırlıq işlərinin təşkili və əlaqələndirilməsi məqsədi ilə Kliniki Tibbi Mərkəzdə işçi qrupu yaradılıb və xəstəxananın əməliyyat blokunun şöbə müdiri Aydın Əlizadə məsul nümayəndə təyin edilib.



Aydın Əlizadə qeyd edir ki, Kliniki Tibbi Mərkəz artıq belə tədbirlərə tibb xidməti təcrübəsinə malikdir. Belə ki, I Avropa Oyunları zamanı da onun rəhbərlik etdiyi qrup tapşırılan işin öhdəsindən yüksək səviyyədə gəlib: «Avropa Oyunları zamanı bizə 129 nəfər, o cümlədən 69 əcnəbi, 60 ölkə vətəndaşı müraciət etmişdi, onlardan 76-sına ambulator, 53-ünə stasionar xidmət göstərilmişdi. İstər əcnəbi vətəndaşlar, istərsə də ölkə sakinləri tibbi xidmətin səviyyəsindən razı qalmışdılar.

IV İslam Həmrəyliyi Oyunlarına da yüksək tibbi xidmət göstərilməsi üçün bütün lazımi tədbirlər görülüb. 9 nəfərlik işçi qrupumuza baş həkim və onun müavinləri, şöbə müdirləri və baş tibb bacısı daxildir. Mühüm idman tədbiri ilə əlaqədar xəstəxanada ümumi, toksikoloji və yoluxucu xəstəliklər üzrə üç şöbədə qəbul otağı yaradılıb. Stasionar müalicə üçün qəbul edilən xəstələrə uşaq cərrahiyyəsi, üz-çənə cərrahiyyəsi, ümumi cərrahiyyə, ümumi terapiya, kardiologiya və nevrologiya, travma və neyrotravma, toksikologiya, yoluxucu xəstəliklər şöbələrində ümumilikdə 57 palata ayrılıb və tam hazır vəziyyətə gətirilib.

Tədbir iştirakçıları və qonaqlara rentgen, ultrasəs, KT, MRT müayinələri aparmaq üçün də hər cür şərait yaradılıb. Müraciət edənlərə tibbi yardım göstərmək üçün kifayət qədər dərman, sarğı materialları, gips və digər tibbi ləvazimatlar ayrılıb.

Ümumilikdə xəstəxanada və ayrı-ayrılıqda hər bir şöbədə mayın 1-dən 31-dək növbətçilik cədvəlləri tutmuşuq. Bu cədvəllərə əsasən, hər ixtisas üzrə 1 həkim və 1 tibb bacısı olmaqla, 18 həkim və o qədər də tibb bacısı 12 saat ərzində növbədə olacaqlar. Növbələrə ingilis və digər dilləri bilən həkim, rezident və tibb işçiləri cəlb ediləcək. Əlavə olaraq, şöbələrdə əcnəbi dil bilən işçilərin siyahısı müəyyənləşdirilir.

Yarışlar 10 gün ərzində keçirilsə də, növbətçilik cədvəlləri bir aylıq müddətə tutulub. Nəzərə almışıq ki, yarış iştirakçıları və tamaşaçılar Bakıya bir neçə gün əvvəldən gəlməyə başlayacaqlar və yarış başa çatandan sonra da onlar paytaxtın və ölkəmizin görməli yerlərinə səyahət edəcəklər».



## Bakı Sağlamlıq Mərkəzi

IV İslam Həmrəyliyi Oyunlarının iştirakçılarına və qonaqlarına tibbi yardım göstərilməsi ilə əlaqədar hazırlıq işlərinin son mərhələsində olan Bakı Sağlamlıq Mərkəzində (BSM) də bu məqsədlə xüsusi komissiya yaradılıb. On bir nəfərdən ibarət komissiyanın tərkibinə xəstəxananın baş həkimi, onun dörd müavini və şöbə müdirləri daxildir.



Komissiyanın sədri, Mərkəzin baş həkimi Hikmət Həsənov hazırlığın gedişi barədə məlumat verərək deyib ki, BSM-in 6-cı mərtəbəsi xüsusi olaraq İslam Həmrəyliyi Oyunları ilə əlaqədar müraciətlər üçün ayrılıb: «Cərrahiyyə, ümumi terapiya, nevrologiya, endokrinologiya, mamalıq və burun-qulaq-boğaz şöbələrində 9 palata hazır vəziyyətə gətirilib. Lazım gəlsə, ümumi cərrahiyyə şöbəsinin tərkibinə daxil olan torakal cərrahiyyə də iştirakçılara xidmət göstərəcək. Bundan başqa, ehtiyat üçün hər şöbədə daha 5 çarpayı ayrılması da nəzərdə tutulub. Tədbir iştirakçıları və qonaqlara rentgen, ultrasəs, KT müayinələri aparılması üçün hər cür şərait yaradılıb. Reanimasiya otağı və laboratoriya da tibbi yardım göstərmək üçün tam hazırdır. Yeni alınmış MRT aparatının da işə salınması üçün tədbirlər görülür».

Direktor mühüm idman tədbiri ərəfəsində həkimlərin treninqlərə cəlb olunduğunu, həkim və tibb işçiləri arasında ingilis dilini, eləcə də idman tədbiri iştirakçılarının dillərini bilənlərin siyahısının hazırlandığını söyləyib. Bildirib ki, müraciət edənlərə tibbi yardım göstərmək üçün kifayət qədər dərman, sarğı materialları, gips və digər tibbi ləvazimatlar tədarük edilib: «Aprelin axırlarında növbətçi qrafikləri tutulub təsdiq ediləcək. Mayın əvvəllərindən yarışlar başa çatanadək xüsusi rejimdə işləyəcəyik. Sutka ərzində həkimlər, orta və kiçik tibbi heyət, həmçinin funksional-diaqnostika şöbələri tam gücü ilə fəaliyyət göstərəcək».

H.Həsənov onu da qeyd edib ki, Bakı Sağlamlıq Mərkəzində qonaqlar üçün xüsusi namaz otağı da ayrılıb, oraya Quran kitabları qoyulub, xalça döşənib, dəstəmaz almaq üçün hər cür şərait yaradılıb.

## Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası

IV İslam Həmrəyliyi Oyunları iştirakçılarına 90 təcili yardım həkim briqadası və 40 sanitar maşın xidmət göstərəcək. Bunu Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının (BŞTTTYS) bu mühüm beynəlxalq idman tədbirinə hazırlıq işləri ilə əlaqədar stansiyanın baş həkimi Rauf Nağıyev deyib. O məlumat verib ki, BŞTTTYS-nın tibb işçiləri IV İslam Həmrəyliyi Oyunları iştirakçılarının və qonaqların məskunlaşdığı 40-a yaxın obyektə xidmət göstərəcəklər, eləcə də yarışların keçirildiyi idman meydançalarında növbədə dayanaraq, iştirakçılar, qonaqlar və tamaşaçılar arasında təcili tibbi xidmətə ehtiyacı olanlara yardım edəcəklər. Baş həkim növbətçilik qrafikinin artıq tərtib olunduğunu, 40 sanitar avtomobilinin hazır vəziyyətə gətirildiyini, tədbir müddətində 90 həkim briqadasının qrafik əsasında öz xidməti borclarını yerinə yetirəcəyini bildirib. Qeyd edib ki, daha ciddi tibbi yardıma ehtiyacı olanlar sanitar maşınlarla Bakı Sağlamlıq Mərkəzinə və Kliniki Tibbi Mərkəzə çatdırılacaqlar.



BAŞ SPONSOR: HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com

«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# Əlilliyin qiymətləndirilməsi sahəsində problemlər aradan qaldırılır

**Bu günlərdə Səhiyyə Nazirliyində əlilliyin və sağlamlıq imkanları məhdudluğunun qiymətləndirilməsi və təhlilinə həsr olunmuş kollegiya iclası keçirildi.**

Toplantını **səhiyyə naziri Oqtay Şirəliyev** açdı.

Tədbirdə çıxış edən **Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Gülmirzə Poladov** əlil və sağlamlıq imkanları məhdud olan insanların daim dövlətin diqqətində saxlandığını vurğuladı. Prezident İlham Əliyevin 2015-ci ilin sentyabr ayında «Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında» Fərman imzaladığını xatırladan G.Poladov həmin sənəddən irəli gələn məsələlərin həlli istiqamətində Səhiyyə Nazirliyi tərəfindən də çoxsaylı işlər görüldüyünü dedi.

Səhiyyə naziri O.Şirəliyevin 27 noyabr 2014-cü ildə «Tibbi-sosial ekspert komissiyasına göndərişlərin elektron registri»nin yaradılması barədə əmr imzaladığını diqqətə çatdıran şöbə müdiri qeyd etdi ki, həmin əmrə əsasən «Tibbi-sosial ekspert komissiyasına göndəriş»in yeni forması və «Uşaqlar üçün Tibbi-sosial ekspert komissiyasına göndəriş»in forması təsdiq olunub: «Bundan əlavə, «Tibbi-sosial ekspert komissiyasına göndərişlərin elektron registri» yaradılıb, bu məqsədlə məlumat bazası və proqram təminatı hazırlanıb, onun ölkənin səhiyyə müəssisələrində tətbiqi zamanı həmin müəssisələrə texniki dəstək göstərilib. 1 yanvar 2015-ci il tarixdən adı çəkilən göndərişlər yalnız müvafiq proqram modulundan çap edilməklə təmin olunur».

Şöbə müdiri nazir O.Şirəliyevin sosial ekspertiza və reabilitasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə 9 sentyabr 2015-ci il tarixində daha bir əmr imzaladığını da vurğuladı. Bildirdi ki, bu əmrə əsasən, əlilliyin qiymətləndirilməsi üçün həkim-məsləhət və hərbi həkim komissiyaları tərəfindən tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin vahid mərkəzləşmiş reyestri yaradılıb, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin «Elektron hökumət» portalı vasitəsilə bu reyestrə real vaxt rejimində çıxış təmin edilib. Əmrin icrası ilə bağlı şəhər və rayon tibb müəssisələrində müvafiq təlimlər də keçirilib. Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsi, İnformatika və Statistika idarəsi tərəfindən tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin vahid mərkəzləşdirilmiş reyestrinə daxil edilmə qaydaları hazırlanıb və səhiyyə naziri tərəfindən təsdiq edilib. Bundan əlavə, G.Poladov məlumat verdi ki, şəhər və rayon tibb müəssisələrinin rəhbərləri həkim-məsləhət komissiyalarının üzvlərini gücləndirilmiş elektron imza ilə təmin ediblər. Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin rəsmiləşdirildiyi




gün bu sənədlər gücləndirilmiş elektron imza ilə imzalanmış elektron sənəd formasında göndərişlərin vahid mərkəzləşmiş reyestrinə daxil edilir.

Şöbə müdiri Səhiyyə Nazirliyi tərəfindən «Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydaları»nın hazırlandığını və 30 mart 2016-cı ildə Nazirlər Kabinetinin Qərarı ilə təsdiqləndiyini dedi. Eyni zamanda, bildirdi ki, Səhiyyə Nazirliyinin baş mütəxəssisləri ilə xəstəliklərin sonuncu beynəlxalq təsnifatına uyğun olaraq əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyənləşdirilməsi meyarları hazırlanıb, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilib və bu sənəd əsasında müvafiq Əsasnamə Nazirlər Kabinetinin Qərarı ilə 30 dekabr 2015-ci ildə təsdiqlənib. Bundan əlavə, müəssisə rəhbərlərinin məsuliyyətinin artırılması məqsədilə 2011-ci ildə səhiyyə naziri tərəfindən təsdiqlənmiş «Həkim məsləhət komissiyası haqqında Əsasnamə»yə dəyişiklik olunub və bu komissiyanın sədri funksiyası müəssisənin baş həkiminə həvalə edilib.

Hazırda «Sosial sığorta haqları ödəyən vətəndaşlara xəstəlik vərəqələrinin verilməsi qaydaları haqqında təlimat»ın yeni variantının hazırlanması məqsədilə işçi qrupun yaradıldığını bildirən natiq qeyd etdi ki, təlimatın yeni variantı təsdiqləndikdən sonra xəstəlik vərəqəsinin yeni formasının işlənilməsi və oradan tibbi-sosial ekspert komissiyasının qərar hissəsinin və möhür yerinin çıxarılması planlaşdırılır.

Əlilliyin müəyyən edilməsi ilə bağlı ortaya çıxan problemlərdən də danışan Gülmirzə Poladov Tibbi yardımın təşkili şöbəsi tərəfindən əlilliyin təyini üçün Tibbi-sosial ekspert komissiyalarına göndərişlərin (F-088U) verilməsinə ciddi nəzarət edildiyini, bu sahədə işində nöqsanlara yol vermiş tibb işçiləri barədə müvafiq tədbirlərin görülməsi ilə bağlı müəssisə rəhbərlərinə dəfələrlə məktublar göndərildiyini vurğuladı. Qaldırılan problemlər təkrarlanarsa, Səhiyyə Nazirliyi tərəfindən tibb idarə və müəssisələrinin rəhbərləri barədə ciddi inzibati tənbeh tədbirlərinin görüləcəyini, bu barədə onlara əvvəlcədən xəbərdarlıq olunduğunu bildirdi. O təəssüflə dedi ki, Səhiyyə Nazirliyinin 088 saylı formaların verilməsi istiqamətində gördüyü çoxsaylı işlərə baxmayaraq, bəzi hallarda nəticələr qənaətbəxş olmur: «15 noyabr 2016-cı il tarixindən əlilliyin qiymətləndirilməsində ekspertiza və reabilitasiya alt sisteminə keçiddən sonrakı 4 ay ərzində əlilliyin təyini ilə bağlı tibb müəssisələrindən Tibbi-sosial ekspert komissiyalarına verilən göndərişlərin (F-088U) sayı, xüsusən, əsassız göndərişlərin sayı əvvəlki illərə nisbətən xeyli artıb. Bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Səhiyyə Nazirliyinə mart ayında eyni məzmunlu məktub daxil olub. Mərkəzləşmiş məlumat bazasından götürülmüş rəqəmlərə əsasən, həmin müddət ərzində dövlət səhiyyə müəssisələri tərəfindən Tibbi-sosial ekspert komissiyalarına 21 minə yaxın göndəriş verilib. Onlardan yalnız 8 519 nəfərinə əlillik təyin edilib. 8 248 halda əlilliyin təyininə imtina olunub, 3 159 halda isə göndəriş düzgün doldurulmadığı üçün geri qaytarılıb.

Ötən müddət ərzində Tibbi-sosial ekspert komissiyalarına göndərişlərin ümumi sayına görə ilk yerləri tutan tibb müəssisələrindən – 131 min nəfər əhaliyə xidmət göstərən Ağcabədi Rayon Mərkəzi Xəstəxanasından (RMX) 574, 31 min nəfərə tibbi xidmət göstərən 21 saylı Ramana Birləşmiş Şəhər Xəstəxanasından (BŞX) 411, 95 min əhaliyə xidmət göstərən Balakən RMX-dən 385 «forma 088» verilib.

Hesablamalar göstərir ki, bir ay ərzində hər 10 min nəfər əhaliyə verilən «forma 088»lərin sayının ölkə üzrə orta göstəricisi təxminən 5-6-ya bərabərdir. Əfsus ki, bəzi tibb müəssisələri orta göstəricilərdən 6-7 dəfə çox göndəriş verib. Beləliklə, məhz bu müəssisələrin hesabına ölkə üzrə orta göstərici də yüksəlib. 2017-ci ilin yanvar ayında 21 saylı BŞX orta ölkə göstəricisini 7,9, 15 saylı Şəhər Poliklinikası (ŞP) 4,5, 22 saylı ŞP 4,1, Ağcabədi, Saatlı və Balakən rayonları isə təxminən 3 dəfə üstələyib. Bu tibb müəssisələrinin baş həkimlərinin hər biri yanvar ayında ayrı-ayrılıqda Tibbi yardımın təşkili şöbəsinə dəvət olunub və onlara şifahi xəbərdarlıq edilib. Ağcabədi RMX Poliklinika şöbəsinin müdiri isə tutduğu vəzifədən azad olunub.

3 aylıq dövrün təhlili isə göstərir ki, 21 saylı BŞX orta ölkə göstəricisindən 7,9, 4 saylı ŞP 4,8, Ağcabədi RMX 4,6, 22 saylı ŞP 3,5 dəfə çox «forma 088» göndərib.

Bütün bu rəqəmlər Səhiyyə Nazirliyinin İnformatika və Statistika idarəsinin, Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzi məlumat bazasından götürülüb».

Şöbə müdiri vəziyyəti müqayisəli göstərmək üçün bildirdi ki, araşdırılan müddət ərzində Bakı və Bakıətrafı qəsəbələrdə təxminən eyni sayda əhaliyə tibbi xidmət göstərən 31 saylı BŞX-dən cəmi 15, 24 saylı ŞP-dan 18, 11 saylı BŞX-dən 21, 19 saylı BŞX-dən 22 xəstəyə «forma 088» verilib.

G.Poladov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən 10 gün əvvəl daxil olan məktubda Tibbi-sosial ekspert komissiyaları tərəfindən imtina edilmiş xəstələrə dəfələrlə təkrar «forma 088» verən müəssisələr barədə müfəssəl məlumat olduğunu da vurğuladı. Qeyd etdi ki, Balakən RMX 55 xəstəyə 2 dəfə, 10 xəstəyə 3 dəfə, 1 xəstəyə hətta 5 dəfə, 21 saylı Ramana BŞX 48 xəstəyə 2 dəfə, 4 xəstəyə 3 dəfə, 1 xəstəyə isə 4 dəfə təkrar «forma 088» verib.

Gülmirzə Poladov qeyd olunanları nəzərə alaraq, əlilliyin müəyyən edilməsinə nəzarətin gücləndirilməsi və bu işdə yol verilən ciddi çatışmazlıqların aradan qaldırılması məqsədilə bəzi konkret təklifləri diqqətə çatdırdı:

- tibb müəssisələrində fəaliyyət göstərən Həkim məsləhət komissiyalarının əmək qabiliyyətinin itirilməsinin ekspertizası sahəsində peşəkarlıq səviyyəsinin artırılması istiqamətində ciddi tədbirlər görülməsi zəruridir;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi-sosial ekspert komissiyaları tərəfindən əsassız hesab edilmiş göndərişlər mütəmadi olaraq tibb müəssisələrinin tibbi şurasında təhlil olunsun, işində nöqsanlara yol vermiş tibb işçiləri barədə müvafiq intizam tədbirləri görülsün və nəticəsi barədə Tibbi yardımın təşkili şöbəsinə məlumat verilsin;
- Həkim məsləhət komissiyalarının işinə zəif nəzarət etdiklərinə və əlilliyin müəyyən edilməsi işində yol verdikləri nöqsanlara görə tibb müəssisələrinin baş həkimləri barədə intizam tədbirləri görülsün.

Daha sonra məsələ ilə bağlı **səhiyyə naziri Oqtay Şirəliyev** çıxış etdi. Nazir kollegiyanın geniş tərkibli iclasının həsr olunduğu məsələni – əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi ilə bağlı tibb müəssisələrindəki vəziyyəti çox ciddi problem adlandırdı.

*(Ardı səhifə 7-də)*

# Əlilliyin qiymətləndirilməsi sahəsində problemlər aradan qaldırılır

*(Əvvəli səhifə 6-da)*

Nazirlər Kabinetində əlilliklə bağlı müzakirələrin aparıldığını, Azərbaycanla digər dövlətlərin bu sahədə göstəricilərinin müqayisə edildiyini, bizdə nəticələrin başqa ölkələrin göstəricilərindən dəfələrlə yüksək olduğunu bildirdi. O.Şirəliyev əlilliklə bağlı göndərişlərin elektron formada verilməsinə keçdikdən sonra Tibbi-sosial ekspert komissiyalarına 21 minə qədər göndərişlə müraciət edildiyini, onlardan cəmi 8519 nəfərə əlillik verildiyini söylədi. Nazir istər 8 248 göndərişdən imtina olunmasını, istərsə də 3 159 göndərişin düzgün doldurulmadığı üçün geri qaytarılmasını bu sahədə çalışan tibb mütəxəssisləri üçün mənfi hal kimi qiymətləndirdi. «Forma 088»in həkim, şöbə müdiri, baş həkim tərəfindən düzgün doldurulmamasını «bisavadlıq» adlandıran səhiyyə naziri qeyd etdi ki, bəzən düzgün yazılmadığına görə geri qaytarılan göndərişi növbəti dəfə yenidən səhv yazıb göndərirlər, hətta bu hal bir neçə dəfə təkrarlanır.

O.Şirəliyev əhalinin narazılığına səbəb olan problemlərin aradan qaldırılması istiqamətində Səhiyyə Nazirliyi tərəfindən ciddi addımlar atıldığını, bu sahədə bir sıra əmrlər imzalandığını, tədbirlər həyata keçirildiyini diqqətə çatdırdı: «Səhiyyə Nazirliyinə daxil olan müraciətlərin araşdırılması zamanı vətəndaşlardan əksər hallarda tibb müəssisələri və Tibbi-sosial ekspert komissiyaları tərəfindən Bakı şəhərinin klinik xəstəxanalarından stasionar müalicə barədə epikrizlərin tələb edilməsi halları müşahidə olunub. Əhalinin bu işdə rahatlığının təminatı, həmçinin, Bakı şəhərinin klinik xəstəxanalarının stasionar şöbələrində mövcud sıxlığın aradan qaldırılması məqsədilə əlilliyin müəyyən edilməsi üçün müayinələrin Bakı şəhərinin klinikaları ilə yanaşı, ölkənin digər şəhər və rayon mərkəzi xəstəxanalarında, həmçinin ambulator şəraitdə həyata keçirilməsini məqsədəuygun saydıq. Əgər əvvəl bir nəfər ekspertiza ilə məşğul olurdusa, məsuliyyəti artırmaq üçün səlahiyyəti baş həkimlərə verdik. Bunu etdik ki, qarşıya çıxan problemlər aradan qalxsın, xəstələr rayonlardan Bakıya göndərilməsinlər, kim həqiqətən xəstədirsə, əli, ayağı, gözü yoxdursa, süründürməçiliklə rastlaşmasın, yaşadığı yerdə müayinədən keçsin və göndəriş alsın. Digər tərəfdən, əlil olmayan adam da əbəs yerə rayondan şəhər xəstəxanasına göndərilməsin. Bu problemləri aradan qaldırdıq. Bəs, nəticə nə oldu?! Rəqəmlər artdı. Doğrudur, rayonlar arasında iqlim, iş şəraiti və s. cəhətdən müxtəlifliyə görə orta əlillik göstəriciləri arasında müəyyən fərqlər ola bilər. Amma bir rayonun əlillik göstəricisi ölkə üzrə orta göstəricidən 7-8 dəfə artıq ola bilməz».

O.Şirəliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bu sahədə çox böyük işlər gördüyünü bildirdi: «Bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçiləri əlilliyi kodlaşdırılmış tibb sənədi əsasında, xəstələri şəxsən görmədən, anonim şəkildə verir. Bu isə o deməkdir ki, əlilliyin verilməsi ilə bağlı bütün məsuliyyət səhiyyənin üzərindədir. Əgər həkim xəstəyə düzgün diaqnoz qoymasa, subyektiv qərar qəbul etsə, onun rəyi əsasında əlillik verilsə, buna görə rəyi verən məsuliyyət daşıyır».

Nazir O.Şirəliyev nöqsanların aradan qaldırılması üçün aprel ayından başlayaraq hər ay, əvvəldən hazırlanmış cədvələ əsasən, bölgələrdə zonalar üzrə tibb müəssisələrində fəaliyyət göstərən Həkim məsləhət komissiyaları üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi-sosial ekspert komissiyaları ilə birgə seminarların keçirilməsinin planlaşdırıldığını vurğuladı: «Bununla bağlı nazir Səlim Müslümova da müraciət etdim. Həm Səhiyyə, həm də Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin məsul şəxslərinin bir yerdə müşavirələr keçirməsi problemlərin aradan qaldırılmasına, bu sahədə çalışan mütəxəssislərin yeni qaydalara, qanunlara daha yaxşı bələd olmasına kömək edəcək. Səhiyyə Nazirliyinin sırf bu məsələlərlə məşğul olan mütəxəssislərinin həmin müşavirələrdə iştirakı ortaya çıxan suallara cavab tapmaqda, çətinliklərin səbəblərini aydınlaşdırmaqda yardımçı ola bilər».

O.Şirəliyev sonda tibb müəssisələrinin rəhbərlərinə öz işlərinə məsuliyyətlə yanaşmağı tapşırdı, Səhiyyə Nazirliyinin mütəxəssislərinin də əlilliklə bağlı məsələlərə daha ciddi nəzarət edəcəklərini dedi.

**Ü.FƏRZƏLİYEVA**

# Builki Ümumdünya Sağlamlıq günü depresiya mövzusuna həsr olunub

**1948-ci ildə I Ümumdünya Səhiyyə Assambleyası Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yaradılmasını qeyd etmək üçün Ümumdünya Sağlamlıq gününün təsis edilməsi təşəbbüsü ilə çıxış etdi. 1950-ci ildən başlayaraq 7 aprel tarixi Ümumdünya Sağlamlıq günü kimi qeyd edilir. Beynəlxalq ictimaiyyətin diqqətini dünya miqyasında səhiyyə sahəsində başlıca problemlərə yönəltmək üçün bir imkan olan Ümumdünya Sağlamlıq günü hər il ÜST-nin prioritet hesab etdiyi müəyyən bir problemi diqqət mərkəzinə gətirir və həmin gün başlanan uzunmüddətli ictimai maarifləndirmə proqramları 7 apreldən sonra da davam edir.**

Azərbaycanda da hər il Səhiyyə Nazirliyi və ÜST-nin dəstəyi ilə Ümumdünya Sağlamlıq gününə həsr olunmuş silsilə tədbirlər keçirilir.

2017-ci ilin Ümumdünya Sağlamlıq günü depressiya probleminə həsr edilib. ÜST-nin Avropa regionunda 128 min suisid halının əsas səbəbi olan depressiya yayılmasına görə əmək qabiliyyətinin və sağlamlığın itirilməsinin ikinci amilidir. Belə pozuntusu olan insanların sayı Avropa regionunda 40 milyon təşkil edir. 2015-ci ilin sağlamlıq vəziyyətinin qlobal qiymətləndirilməsinin bu yaxında dərc edilmiş nəticələri göstərib ki, bu göstərici olkələr üzrə əhalinin 3,8-6,3%-i civarında dəyişir.

ÜST-nin Avropa regional bürosunun direktoru Jujanna Yakabın sözlərinə görə, «Depressiyanın müalicə və profilaktikası mümkün olsa da, dərin depressiyası olan insanların ən azı 75%-i adekvat müalicə almır. Lakin tək xidmətlərin miqyasının genişləndirilməsi yetərli deyil; bu problem barədə əhalinin məlumatlılığının artırılması, stiqmanın səviyyəsinin azaldılması və aradan qaldırılması istiqamətində fəaliyyət eyni dərəcədə əhəmiyyətə malikdir.

ÜST-nin builki «Depressiya: gəlin danışaq» kampaniyası geniş ictimaiyyəti depressiyanın nəticələri, onunla mübarizə üsulları, depressiya ilə yaşayan insanları dəstəkləməyin yolları barədə məlumatlandırmağa yönəldilib.

Depressiya tez-tez digər vəziyyətlərlə yanaşı əmələ gəlir və 15-29 yaş arasında insanların ölüm hallarının səbəbi kimi yol-nəqliyyat hadisələrindən sonra ikinci yerdə olan intihara gətirib çıxara bilər. Kişilərlə müqayisədə qadınlar arasında depressiya halları iki dəfə çox olur, buna baxmayaraq, kişilər arasında suisid hallarının sayı daha çoxdur: 2015-ci ildə aşağı və orta gəlir səviyyəli ölkələrdə qadınlarla müqayisədə kişilər suisidə dörd dəfə çox əl atıblar.

Depressiyanın psixoterapiya, antidepressant və ya hər ikisi vasitəsilə müalicəsi qənaət etməyə imkan verən səmərəli yanaşmadır: ABŞ-da bu sahəyə yatırılan hər dollar daha yaxşı sağlamlıq qöstəriciləri və yüksək əmək qabiliyyətinə görə dörd dollar mənfəət gətirir.

Hazırda ölkələr səhiyyə xidmətləri və sosial inteqrasiya ilə ümumi əhatə olunmağa keçid mərhələsindədir. Depressiya barədə məlumatlılığın artırılması, bu yolla depressiyanın daha effektiv profilaktikası bu keçid məqsədilə aparılan işin ayrılmaz hissəsi olacaq. Bu iş ölkələrə yardım edəcək ki, Davamlı İnkişaf Məqsədlərinin müvafiq bəndlərinə uyğun olaraq, 2030-cu ilə qədər profilaktika və müalicə vasitəsilə qeyri-yoluxucu xəstəliklər səbəbindən erkən ölüm hallarının üçdəbir qədər azaldılmasına, psixi sağlamlığın və rifahın yaxşılaşdırılmasına nail olsunlar.

# Respublika Diaqnostika Mərkəzində böyrək transplantasiyası əməliyyatları olunacaq

**Respublika Diaqnostika Mərkəzində Böyrək Xəstəlikləri və Transplantasiya Mərkəzinin təqdimatı keçirilib**.



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə Böyrək Xəstəlikləri və Transplantasiya Mərkəzinin rəhbəri, tibb üzrə fəlsəfə doktoru Rəşad Şolan və həkim-nefroloq Orxan Quliyev çıxış edərək, son üç ildə böyrək xəstəliklərinin müayinə və müalicəsinin aparılmasında əldə edilən uğurlardan danışıblar. Həmçinin yaxın zamanlarda Respublika Diaqnostika Mərkəzində böyrək transplantasiyasının həyata keçirilməsinə başlanılacağı barədə məlumat verilib.

Təqdimatda nəzərə çatdırılıb ki, daim inkişafda olan və müasir tibbi yenilikləri tətbiq edən Respublika Diaqnostika Mərkəzində böyrək transplantasiyası üçün lazımi şərait yaradılıb və müvafiq ixtisas səviyyəsinə malik həkim-mütəxəssislərdən ibarət komanda fəaliyyət göstərir.

BAŞ SPONSOR:

HB Co LTD

Sağlam gələcək - bizimlə gələcək!

Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com

«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# Autizm barədə məlumatlandırma aylığı

**Autizm XXI əsrdə bütün dünyada yayılmış problemlərdən hesab edilir. Tədqiqatlar göstərir ki, dünya əhalisinin təxminən 1 faizi, yəni 70 milyon insan autizmdən əziyyət çəkir. Belə pozuntular ildən-ilə artır və getdikcə ağır sosial problemə çevrilir. Belə ki, əgər 2004-cü ildə ABŞ-da hər min uşaqdan 68-də həmin sindrom özünü göstərmişdisə, 2014-cü ildə artıq hər min uşaqdan 150-si onunla üzləşib. Sindromun artım sürəti bu sahədə maariflənmənin artırılmasını, stiqmanın aradan qaldırılmasını və cəmiyyətin bütün təbəqələrini onunla mübarizəyə yönəltməyi zəruri edir.**





Autizmin müxtəlif növləri var. Bunlardan Asperger sindromu, atipik autizm və uşaq autizmi ən geniş yayılıb. Uşaq autizminə 3 yaşa qədər inkişafda ləngimələr, stereotip hərəkətlər, ünsiyyətdə və ətraf mühiti anlamaqda problemlər və s. kimi əlamətlər xarakterikdir. Belə uşaqlarda artıq 2-3 yaşdan etibarən müəyyən simptomlar özünü büruzə verir, dəqiq diaqnoz isə 3 yaşında qoyulur. Lakin valideyn uşaqda olan dəyişikliyi daha tez hiss etməlidir.

Autizmin yaranmasının dəqiq səbəbləri elmə hələ də məlum deyil. Əvvəllər onu valideynin diqqətsizliyi və ya peyvəndlərlə əlaqələndirirdilər, lakin aparılan araşdırmalar bunu təkzib edir. Bu xəstəliyin irsilik dərəcəsi də çox azdır. Nəsildə autizmdən əziyyət çəkən insanlar olduqda uşaqda da bunun olması istisna deyil, lakin bu da çox az rast gəlinən haldır.

2007-ci ildən etibarən BMT-nin qərarı ilə 2 aprel tarixi bütün dünyada Autizm barədə Məlumatlandırma günü kimi qeyd olunur. Bu il bir sıra ölkələrdə bütünlükdə aprel ayı bu xəstəlik haqqında informasiyanın cəmiyyətdə geniş işıqlandırılmasına həsr edilib. Azərbaycanda da Autizm barədə məlumatlandırma aylığı müxtəlif tədbirlərlə yadda qalıb.

## Autistlərə müstəqil qərar qəbul etmək imkanı yaradılmalıdır

Cəmiyyət autizmdən əziyyət çəkən insanlara münasibətini dəyişməli, onların stiqmatizasiyasından imtina etməli və vətəndaş hüquqlarını tanımalıdır. Bu fikirlər BMT-nin baş katibi Antoniu Quterrişin 2 Aprel – Ümumdünya Autizm barədə Məlumatlandırma günü ilə bağlı müraciətində yer alıb.

Əlil Hüquqları Konvensiyasında cəmiyyətin bütün üzvlərinin hüquq bərabərliyinin təsbit olunduğunu xatırladan BMT-nin baş katibi vurğulayıb ki, autizmdən əziyyət çəkən insanların özləri barədə, o cümlədən, kiminlə və harada yaşamaq, nikah bağlamaq, peşə seçmək və öz pulunu necə xərcləmək məsələlərinə dair müstəqil qərar qəbul etmələri üçün imkan yaradılmalıdır. Onlara öz hüquqlarını həyata keçirməkdə yalnız müvafiq kömək göstərmək lazımdır.

Antoniu Quterriş deyib: «Ümumdünya Autizm barədə Məlumatlandırma günündə biz hamımız autistlərə münasibətin dəyişməsində və onların vətəndaş kimi hüquqlarının tanınmasında öz rolumuzu oynamalıyıq. Onlar da digər insanlar kimi öz hüquqlarını tələb edə bilərlər və öz mənafelərinə uyğun sərbəst şəkildə mühüm qərar qəbul etmək hüququna malikdirlər».

BMT-nin baş katibinin müraciətində deyilir ki, autizmdən əziyyət çəkən insanlar müstəqil davranışa malik olsalar, ümumi gələcəyimizin qurulmasına daha çox töhfə verə bilərlər.

## II Azərbaycan Autizm Paneli

Beynəlxalq Autizm barədə məlumatlandırma aylığı çərçivəsində Azərbaycan Tibb Universitetində (ATU) II Azərbaycan Autizm Paneli keçirilib. ATU-nun Tədris Terapevtik Klinikasında baş tutan toplantıda autizmlə bağlı stiqma, məlumat çatışmazlığı kimi problemlərdən söz açılıb. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), ATU-nun Psixiatriya kafedrası, Uşaq Psixi Sağlamlıq və İnkişaf Mərkəzi (UPSİM), "Birgə və Sağlam" və "Lider Qadınlar" ictimai birliklərinin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə açan ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov problemin uşaqların sağlamlığına təsirindən danışıb.

Milli Məclisin Səhiyyə Komitəsinin üzvü, deputat Məlahət İbrahimqızı autizmlə bağlı görülən işlər, ölkə parlamentində mövzu ilə əlaqədar aparılan müzakirələr barədə məlumat verib. Millət vəkili autizm sindromuna ictimaiyyətin diqqətinin cəlb edilməsinin və valideyn-həkim əlaqələrinin gücləndirilməsinin vacibliyini qeyd edib.

İSİM-in Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadə autizmlə bağlı statistik rəqəmləri iştirakçıların diqqətinə çatdırıb, aparılan maarifləndirmə tədbirlərinin bu sahədə müsbət nəticələr verdiyini vurğulayıb.

Sonra həkimlər Kamran Salayev «Autizmin diaqnostik meyarları», Nigar Sədiyeva «Uşaq inkişafı və onun qiymətləndirilməsi», psixoloq Turanə Əliyeva «Autizm spektr pozuntusu diaqnozu olan uşaqların psixi sağlamlıq ehtiyaclarının təhsil vasitəsilə dəstəklənməsi, mövcud problemlər və inkişaf imkanları», Rima İbadova «Autizmlə yanaşı sıx rastlanan epileptik sindromlar və bu uşaqlarda elektroensefaloqrammanın xüsusiyyətləri», İkram Rüstəmov «Autizm spektr pozuntularında medikal müalicə üsulları» mövzularında məruzələrlə çıxış ediblər.

## Autizmlə bağlı seminar keçirilib

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ) Ümumdünya Autizm barədə Məlumatlandırma gününə həsr edilmiş seminar keçirilib.

Tədbirdə ADHTİ-nin Pediatriya kafedrasını dosenti Mətanət Qaraxanova uşaqlarda autistik spektrli pozuntuların erkən aşkarlanması üçün diaqnostik meyarlar, erkən müdaxilə istiqamətləri, autizm sahəsində beynəlxalq təcrübələr və maarifləndirilmə tədbirləri barədə məlumat verib.

## «Mavi işıqla işıqlandır»

2 Aprel – Ümumdünya Autizm barədə Məlumatlandırma günü münasibətilə İSİM, «Birgə və Sağlam» və «Lider Qadınlar» ictimai birliklərinin birgə aksiyası çərçivəsində Bakıda növbəti tədbir keçirilib.

«Park Bulvar» ticarət mərkəzində fləşmobla başlayan tədbir Azərbaycan Xalça Muzeyinə yürüşlə davam etdirilib. Daha sonra «Mavi işıqla işıqlandır» şüarı altında Qız qalası, Alov qüllələri, «Baku Crystal Hall», Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) binası və Bakı Olimpiya Stadionu autizmin beynəlxalq rəmzi hesab edilən mavi rənglə işıqlandırılıb.



Qeyd edək ki, Autizm barədə məlumatlandırma aylığı çərçivəsində Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi olan «Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin Liderlik Məktəbi»ndə ictimai maarifləndirmə tədbiri, «Boulevard Hotel»də isə İSİM, "Birgə və Sağlam" və "Lider Qadınlar" ictimai birliklərinin, Gülnarə Xəlilova Moda evi, «Ümid var» Xeyriyyə Cəmiyyətinin birgə təşkilatçılığı ilə autizm sindromlu uşaqların iştirakı ilə moda nümayişi keçirilib. Aylıq velotur və Beynəlxalq Muğam Mərkəzində autizm sindromlu uşaqların iştirakı ilə xor və ritm konserti ilə başa çatıb.

BAŞ SPONSOR: HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com
«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# Süni uşaqlıq: fantastika reallığa çevrilir

**Amerikalı bioloqlar dünya tarixində ilk dəfə olaraq içərisində döl yetişdirilən süni uşaqlıq hazırlayıblar. «Nature Communications» nəşrinin məlumatına əsasən, bu təcrübə ilk dəfə hələ doğulmamış buzov üzərində aparılıb. Döl düz bir ay inkubatorda saxlanılıb.**

Mütəxəssislər bildirirlər ki, vaxtından əvvəl doğulmuş körpələr, habelə heyvan rüşeymləri üçün nəzərdə tutulan süni uşaqlıq həyatı qoruyub saxlamaq məqsədi daşıyan özünəməxsus sistemdir. Burada rüşeym xüsusi amniotik maye doldurulmuş möhkəm paketin içində, borulara qoşulmuş vəziyyətdə yerləşdirilir. Buzov dölü də məhz belə inkubatorda yetişdirilib.

Süni uşaqlığın yaradıldığı Filadelfiya Tədqiqat İnstitutundan (ABŞ) alim Alan Fleykin sözlərinə görə, onun komandası uşaqlığın fəaliyyətini imitasiya edən, onu əvəz edə bilən qurğu yaradıb: «Bu texnologiya sadəcə indiyədək mövcud olanların təkmilləşdirilmiş variantı deyil.



Küvezlərdə artıq doğulmuş körpələrə müvafiq temperatur rejimi, infeksiyasız mühit yaradılır, əmə bilmədiklərinə görə onlara qida zondla verilir. Bununla belə, küvezdə körpələr ağciyərləri ilə nəfəs alırlar. Bəzən onların tənəffüsünü xüsusi preparatlarla dəstəkləmək lazım gəlsə belə, bu yenə də ağciyər tənəffüsüdür. Qidanı da onlar mədədə və bağırsaqda həzm edirlər və şlaklar təbii yolla xaric olur. Süni uşaqlıqda isə döl dölətrafı sularda «üzür», qida maddələri parenteral yolla birbaşa venaya yeridilir, oksigenlə təminat oksigenatorlar vasitəsilə, «işlənmiş materialların» kənarlaşdırılması isə süni böyrəklərin köməyi ilə baş verir».

Alimlərin sözlərinə görə, gələcəkdə «biokisə»yə doldurulan amniotik mayenin tərkibini təkmilləşdirməklə daha çətin vəzifələri həll etmək və inkişafdan qalan rüşeymlərin böyüməsinə nail olmaq mümkün olacaq.

*www.pravda.ru saytının materialları əsasında*

# Uşaqların pulsuz oftalmoloji müayinəsi aparılıb

**Əhalinin sağlamlığının qorunması məqsədilə Respublika Diaqnostika Mərkəzi (RDM) tərəfindən mütəmadi aksiyalar keçirilir. Belə aksiyalardan biri çərçivəsində uşaqlarda pulsuz oftalmoloji müayinələr aparılıb.**

Uşaqların erkən yaşda göz sağlamlığının qorunması məqsədi daşıyan aksiya «Xəzər Qayğıkeşlik Layihəsi» Humanitar İctimai Birliyi ilə birgə təşkil edilib. Aksiyada RDM-in Oftalmologiya şöbəsinin həkim-oftalmoloqu Qəmər Əliyeva bir qrup uşağı oftalmoloji müayinədən keçirib. Çəpgözlük problemi olan uşaqlar klinikanın vəsaiti hesabına əməliyyat olunublar.



# Kürdəmirdə 300-ə yaxın xəstəyə oftalmoloji yardım göstərilib

**Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası Kürdəmir rayonunda olub.**

Aksiya çərçivəsində Səyyar Klinikaya müraciət edən 300-ə yaxın xəstəyə oftalmoloji yardım göstərilib. Müayinə olunanlardan 13-nə cərrahi əməliyyat icra olunub.

Qeyd edək ki, humanitar xarakter daşıyan aksiya mütəmadi olaraq, hər ay ölkəmizin müxtəlif şəhər və rayonlarında keçirilir.

Növbəti aksiya mayın 8-9-da Sumqayıt şəhərində təşkil olunacaq.






# 17 Aprel – Ümumdünya Hemofiliya günü qeyd edildi

**Ağır irsi qan xəstəliyi olan, müxtəlif qanaxmalarla xarakterizə edilən hemofiliyadan bu gün dünyada 400 mindən çox adam əziyyət çəkir. O cümlədən Azərbaycanda Səhiyyə Nazirliyinin Elmi-Praktiki Hemofiliya Mərkəzində 1 554 nəfər dispanser qeydiyyatındadır.**



Bu rəqəmlər 17 Aprel – Ümumdünya Hemofiliya günü münasibətilə M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında keçirilən tədbirdə səsləndirilib.

Ölkəmizdə hemofiliya xəstəliyi ilə mübarizə sahəsində Səhiyyə Nazirliyi tərəfindən görülən işlərə, müvafiq dövlət proqramının icrasına həsr edilmiş toplantıda çıxış edən Elmi-Praktiki Hemofiliya Mərkəzinin rəhbəri Elmira Qədimova bildirib ki, Azərbaycan Respublikasında bu xəstəlikdən əziyyət çəkən insanlara dövlət tərəfindən qayğı göstərilir və zəruri müalicə tədbirləri həyata keçirilir. Müvafiq dövlət proqramı çərçivəsində onlara tamamilə pulsuz dərman vasitələri verilir, müalicə aparılır.

E.Qədimova qeyd edib ki, Qafqazda ilk hemofiliya mərkəzi 1973-cü ildə Azərbaycanda yaradılıb və hazırda Bakıda – Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının Hematologiya şöbəsinin nəzdində fəaliyyət göstərir. Mərkəzin məhz Respublika Klinik Xəstəxanasında təşkil olunmasının səbəbi hemofiliyalı xəstələrin müayinəsi, müalicəsi, dispanserizasiyası və reabilitasiyası zamanı müxtəlif ixtisaslı həkimlərin iştirakının zəruriliyi ilə bağlıdır. Mərkəzdə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Hematologiya kafedrasının və Respublika Klinik Xəstəxanasının Hematologiya şöbəsinin əməkdaşları hemofiliyalı xəstələrin müalicəsi ilə məşğul olurlar.

Hemofiliya probleminin bütün dünyada mövcud olduğunu, hazırda yer üzündə belə xəstələrin sayının 400 mini keçdiyini vurğulayan Mərkəz rəhbəri Azərbaycanda bu xəstəliklə bağlı son rəqəmləri açıqlayıb: «Bu ilin 1 aprel tarixinə mərkəzdə dispanser qeydiyyatında olan 1 554 nəfər xəstə arasında 1-5 yaş arası olanlar 113 nəfər, 5-15 yaş arasında olanlar isə 222 nəfərdir. Bakı üzrə 738, Sumqayıtda 76 nəfər xəstə var. Ümumilikdə isə, ölkəmizin Mərkəzi Aran rayonlarında, Bakı və Sumqayıtda xəstələrin sayı artıb. Hər il Azərbaycanda 50-60 hemofiliyalı xəstə qeydiyyata götürülür».

E.Qədimova ölkə rəhbərliyinin və Səhiyyə Nazirliyinin hemofiliya xəstələrinin problemlərinin həlli üçün ardıcıl olaraq həyata keçirdiyi tədbirlərdən də danışıb: «Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın vətəndaşların sağlamlığına verdiyi böyük önəmin bariz nümunəsi ölkəmizdə səhiyyə sahəsində aparılan islahatlar, qəbul olunmuş və həyata keçirilən dövlət proqramlarıdır. Bu proqramların dördü hematologiyaya aiddir.

2005-ci ildə «Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildikdən sonra bu sahədə ardıcıl olaraq dövlət proqramları işlənib hazırlanır və həyata keçirilir. O cümlədən, 2006-2010-cu illəri əhatə edən «Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı», «2011-2015-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı» uğurla başa çatıb. İndi «2016-2020-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı» icra edilməkdədir.

Ölkə başçısının hemofiliyalı xəstələr üçün verdiyi qərar və sərəncamlar Səhiyyə Nazirliyi tərəfindən uğurla yerinə yetirilir. Belə ki, bu xəstələr üçün ən vacib müalicə vasitəsi olan VIII/IX faktor preparatları ölkəyə gətirilir. Dünyada hemofiliyalı xəstələrin 80 faizi lazımi dərman preparatları ilə təmin olunmur, ölkələrin yalnız 20 faizində xəstələr lazımi dərman preparatları ilə təmin edilir. Azərbaycan da bu 20 faizə aiddir. Bu gün bütün inkişaf etmiş dövlətlərdə olduğu kimi, ölkəmizdə də tibbi göstərişlər əsasında hemofiliyalı xəstələr müxtəlif növ müalicə alırlar ki, bunlara ev şəraitində, ambulator və stasionar müalicələrlə yanaşı, I və II profilaktika da daxildir. Səhiyyə Nazirliyi tərəfindən mərkəz müasir tələblərə uyğun təmir olunub, laboratoriya avadanlıqla və reaktivlərlə təchiz edilib. Hər il 50-60 nəfərdən çox hemofiliyalı xəstədə müxtəlif böyük və kiçik cərrahi əməliyyatlar həyata keçirilir. Dövlət Proqramının icrasının təmin edilməsi üçün Səhiyyə Nazirliyi tərəfindən Tədbirlər Planı həyata keçirilərkən bir sıra mühüm işlər görülüb. Onlardan ən vacibi faktor konsentratları ilə təminat və hemofiliyalı xəstələrin registrinin yaradılmasıdır. Bu gün ağır hemofiliyalı xəstə uşaqlarda birinci profilaktika aparılaraq, əlilliyin qarşısı alınır, həyat keyfiyyətləri yaxşılaşır, onların həyat tərzi sağlam insanlardan seçilmir».



Mərkəzin baş həkiminin müavini Fuad Əsgərov, B.Eyvazov adına Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Zöhrə Əlimirzəyeva, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Gülnarə Hüseynova çıxış edərək, bu günün vacibliyindən, dövlətimizin hemofiliyalı xəstələrə qayğısından, Azərbaycanda bu xəstəliyin daşıyıcıları olan şəxslərin müalicəsində əldə olunmuş nailiyyətlərdən və daha yüksək irəliləyişlərə nail olmağın yollarından bəhs ediblər. Ölkəmizdə hemofiliyalı şəxslərin qeydiyyata alınmasından 20 il ötdüyü də tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə çıxış edən hemofiliyalı şəxslər ölkə başçısına, Səhiyyə Nazirliyinə və mərkəzin əməkdaşlarına minnətdarlıqlarını bildirib, hər kəsi bu xəstəliyə qalib gəlmək üçün birliyə səsləyiblər.

Mərkəzin rəhbəri Elmira Qədimova jurnalistlərə müsahibəsində bu xəstəlik haqqında məlumat verərək deyib ki, ağır irsi qan xəstəliyi olan hemofiliyaya daha çox oğlanlarda rast gəlinir, qızlar isə daşıyıcı olur. Amma genetik variantlarla əlaqədar bəzi istisnalar mümkündür. Əgər ata hemofiliyalı xəstə və ana daşıyıcıdırsa, onda qız uşaqları da hemofiliyalı xəstə ola bilər. Hazırda dünyadakı qadın hemofiliyalı xəstələrin 10 faizi Azərbaycandadır. Ölkəmizdə qadın hemofiliya xəstələrinin belə çox olmasının səbəbi isə qohumlar arasında nikahların çox yayılmasıdır.

Xatırladaq ki, hemofiliya qanın laxtalanma xüsusiyyətinin pozulması ilə xarakterizə olunan irsi xəstəlikdir. Bu zaman oynaqlara, əzələlərə və daxili orqanlara öz-özünə zədə və ya cərrahi müdaxilə nəticəsində qanaxma baş verir. Hemofiliya X xromosomunda bir genin konfiqurasiyasının dəyişilməsi, qanın laxtalanma prosesində iştirak edən VIII, IX və ya fon Villebrand faktorunun çatışmazlığı nəticəsində yaranır. Xəstəliyin üç tipi fərqləndirilir (A, B, C). Xəstəliyin simptomları demək olar ki, bütün hallarda erkən uşaqlıq dövründə, çox vaxt körpənin həyatının 4-5-ci günündə qədər özünü göstərir. Təkrar baş verən şiddətli qanaxmalar zamanı qanın oynaq və yumşaq toxumalara yığılması xəstənin hələ uşaq və gənc yaşlarında əlil və ya şikəst olmasına, bəzən də ölümünə səbəb olur. Lakin çoxillik təcrübələr göstərir ki, vaxtında və lazımi səviyyədə antihemofil preparatlarla aparılan müalicə xəstələri nəinki ölüm təhlükəsindən xilas edir, hətta onlarda şikəstliyin və əlilliyin qarşısını alır. Bu gün hemofiliyanın tam müalicəsi yoxdur, lakin pasiyentin orqanizmində çatışmayan qanın laxtalanma faktorunun inyeksiya edilməsi yolu ilə bu xəstəliyin gedişinə tamamilə və uğurlu şəkildə nəzarət edilir. Bu məqsədlə istifadə edilən faktor preparatı əksər hallarda donor qanından götürülür.

Qeyd edək ki, Ümumdünya Hemofiliya günü Ümumdünya Səhiyyə Təşkilatının və Ümumdünya Hemofiliya Federasiyasının təşəbbüsü ilə təsis olunub. Bu günün qeyd olunmasında məqsəd hemofiliyadan əziyyət çəkən insanların hər gün üzləşdiyi problemlərə dünya ictimaiyyətinin, siyasətçilərin və səhiyyə işçilərinin diqqətini cəlb etmək, bu barədə onların məlumatını artırmaqdır.

Hemofiliya gününün tarixi də təsadüfən seçilməyib. Belə ki, Ümumdünya Hemofiliya Federasiyasını yaratmış Frenk Şnaybelə hörmət əlaməti olaraq, onun ad günü – aprelin 17-si Ümumdünya Hemofiliya günü kimi qeyd edilir.

BAŞ SPONSOR:
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com

«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# Azərbaycanda növbəti Avropa İmmunlaşdırma Həftəsinə start verilib

**Böyüməkdə olan nəslin sağlamlığının qorunması, infeksion xəstəliklərə qarşı mübarizə məsələləri dövlətimizin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindəndir. Bu işdə immunoprofilaktika tədbirləri böyük əhəmiyyət daşıyır. Bu barədə Respublika Gigiyena və Epidemiologiya Mərkəzində (RGEM) Azərbaycanda növbəti Avropa İmmunlaşdırma Həftəsinə başlanması münasibətilə keçirilən mətbuat konfransında söhbət açılıb.**

Toplantıda RGEM-in direktor müavini Afaq Əliyeva bildirib ki, immunlaşdırma səhiyyə sahəsində ən uğurlu və iqtisadi baxımdan səmərəli tədbirlərdən biridir. Son illərdə ölkəmizdə infeksion xəstəliklərin profilaktikası və onlara qarşı mübarizəsi üzrə həyata keçirilən genişmiqyaslı və səmərəli tədbirlər sayəsində davamlı epidemioloji sabitliyin təmin olunduğunu deyən A.Əliyeva qeyd edib ki, indi Avropanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da 11 infeksion xəstəlik - qızılca, məxmərək, parotit, difteriya, göyöskürək, tetanus və s. xəstəliklər əleyhinə planlı şəkildə peyvəndləşdirmə tədbirləri aparılır və bu, ölkə üzrə bütün uşaqların 95-97 faizini əhatə edir. Peyvənd təqviminə B hepatiti və pnevmokokk əleyhinə vaksinasiyanın daxil edildiyini və uğurla aparıldığını söyləyən direktor müavini immunoprofilaktika tədbirləri, bu sahədə işlərin daim təkmilləşdirilməsi sayəsində ölkəmizdə infeksion xəstəliklərə tutulma hallarının azaldılması istiqamətində sabit dinamikanın əldə edildiyini vurğulayıb. Xatırladıb ki, ÜST Azərbaycana poliomielitin kökünün kəsildiyi region kimi sertifikat verib. 2016-cı ilin aprel ayından etibarən ölkəmizin bütün şəhər və rayonlarında üçvalentli OPV vaksinindən istifadə dayandırılıb, onun əvəzinə ikivalentli vaksin tətbiqinə başlanıb.



RGEM direktorunun müavini vurğulayıb ki, indi regionlarda peyvəndlərdən kütləvi imtina edilməsi halları müşahidə olunmur: «Bəzən internetdə peyvəndlər barədə neqativ informasiyaya rast gələn valideynlər öz uşaqlarının vaksinləşdirilməsindən imtina edirlər ki, belə hallar da adətən Bakıda baş verir. Lakin bütövlükdə, belə faktların sayı çox aşağı faiz təşkil edir».

Tədbirdə qeyd olunub ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə 2006-cı ildən Avropa regionunda keçirilən, dünya əhalisini münasib qiymətə zəruri vaksinlərlə təmin etməyə yönəlmiş immunlaşdırma həftəsi kampaniyasına Azərbaycan 2007-ci ildən qoşulub. Avropa İmmunlaşdırma Həftəsinin devizi "Önləmək. Qorumaq. Peyvənd etmək" şüarıdır. Bu kampaniyanın təbliğ etdiyi əsas ideyanın mahiyyəti ondan ibarətdir ki, hər bir uşağın immunlaşdırılması xəstəliklərin profilaktikası və həyatın qorunması üçün çox böyük əhəmiyyət kəsb edir. Aksiyanın məqsədi valideynləri, səhiyyə işçilərini, səhiyyə siyasətinin formalaşması və müvafiq qərarlar qəbul edilməsi üçün məsul şəxsləri, habelə KİV-ləri immunlaşdırmanın vacibliyi barədə məlumatlandırmaq, bu yolla vaksinləşdirmə tədbirlərinin əhatə dairəsini genişləndirməkdir.

# «Təxirəsalınmaz ilkin tibbi yardımın əsas bilikləri»

*Mərkəzi Elmi Kitabxanada bu mövzuda təlim keçilib*

**Ölkəmizdə təşkil olunan böyük idman və mədəniyyət tədbirləri ərəfəsində geniş kütlələrin ilkin tibbi yardım göstərmək bacarığının olması məsələsi daim aktuallaşır. Bu baxımdan, IV İslam Həmrəyliyi Oyunları da istisna olmayıb. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkil etdiyi tədbir də bu məqsədi daşıyırdı.**

IV İslam Həmrəyliyi Oyunları könüllülərinin iştirakı ilə keçirilən tədbirdə İSİM-in dəvəti ilə Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktor müavini Malik Abbasovun «Təxirəsalınmaz ilkin tibbi yardımın əsas bilikləri» mövzusunda maarifləndirici mühazirəsi dinlənilib.

İlkin tibbi yardımın məqsəd və vəzifələri barədə məlumat verən direktor müavini xüsusi manekendən istifadə etməklə, tənəffüs dayandığı halda süni tənəffüs verilmə və ürəyin qapalı masajının düzgün icra qaydalarını iştirakçıların nəzərinə çatdırıb. Döş qəfəsinin ağrıları, zədələnmələri və yaralanmaları, tənəffüs yoluna yad cismin düşməsi zamanı göstərilməli ilk yardım qaydaları bilavasitə könüllülərin iştirakı ilə təqdim olunub.

Mühazirədə həmçinin yanıqlar zamanı ilkin yardımın göstərilməsi, qanaxmaların dayandırılması üsulları, sınıq-çıxıq və zədələnmələrdə ətrafların fiksasiya edilməsi qaydaları, qıcolmalar vaxtı düzgün yardımla bağlı ətraflı məlumat verilib.

İnteraktiv formada keçən tədbirin sonunda iştirakçıları maraqlandıran suallar da cavablandırılıb.

# Tibb işçilərinin hüquqi maarifləndirilməsinə dair treninqlər keçirilir

**«Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinin yerinə yetirilməsi, bu işdə şəffaflığın və vahid metodologiyanın tətbiqi məqsədi ilə treninqlərə başlanılıb.**

Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilən treninqlər «Tibb İşçilərinin Hüquqi Maarifləndirilməsinə Yardım» İctimai Birliyi tərəfindən aparılır. Treninq tibb işçilərinin öz hüquq və vəzifələrini bilməsi, həmçinin pasiyent hüquqlarını da lazımi səviyyədə öyrənməsi, onlarla düzgün ünsiyyət qurulması, şikayətlərin hüquqi həlli baxımından böyük əhəmiyyət kəsb edir.

İlk təlimlər Siyəzən və Quba Regional Müalicə Diaqnostika Mərkəzlərində (MDM) təşkil olunub. Treninqlərdə bu tibb müəssisələri ilə yanaşı, Siyəzən Rayon Mərkəzi Poliklinikasının, Şabran, Xızı, Quba, Qusar, Xaçmaz Rayon Mərkəzi Xəstəxanalarının mütəxəssisləri iştirak ediblər.

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində təşkil olunan digər təlimə isə M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin, Milli Onkologiya Mərkəzinin, Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin, M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının, Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun, Respublika Perinatal Mərkəzinin, 1 nömrəli Respublika Psixiatriya Xəstəxanasının, 3 nömrəli Şəhər Klinik Xəstəxanasının, Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun, Kliniki Tibbi Mərkəzin və Bakı Sağlamlıq Mərkəzinin mütəxəssisləri qatılıblar.

Treninqlərdə tibb işçilərinin hüquq və vəzifələri, həmin hüquqların müdafiəsi mexanizmləri, şikayətlərin araşdırılma taktikasına dair praktiki tövsiyələr haqqında mühazirələrlə Səhiyyə Nazirliyinin Hüquq və daxili nəzarət sektorunun müdiri Elxan Əzizov və başqaları çıxış ediblər.

Analoji treninqlərin digər regionlarda da keçirilməsi planlaşdırılır.

# Tibb Universitetində Uşaq psixi sağlamlıq və inkişaf mərkəzi açılıb

**Son illər uşaqlar arasında inkişaf problemlərinin və autizm spektr pozulmalarının rastgəlmə tezliyinin artması və erkən diaqnostikası həmin məsələyə yeni münasibət tələb edir. Bunu nəzərə alaraq, Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasında Uşaq psixi sağlamlıq və inkişaf mərkəzi açılıb.**

Uşaq psixi sağlamlıq və inkişaf mərkəzi
CHILD MENTAL HEALTH AND DEVELOPMENT CENTER

Yeni mərkəzin rəhbəri Nigar Sədiyeva fəaliyyətlərinin təkcə klinik deyil, elm və tədris sahəsində də olacağını bildirib: «Mərkəzdə uşaqların inkişaf problemlərinin, pediatrik və psixi xəstəliklərin erkən diaqnostikası və müalicəsi həyata keçiriləcək. Neyroinkişaf problemlərinə multidissiplinar yanaşmanı öz qarşısına məqsəd qoyan mərkəzdə müvafiq fənlərin tədrisi aparılacaq. Bununla yanaşı, mərkəz digər ölkələrdəki analoji qurumlarla əməkdaşlıq edəcək və beynəlxalq təcrübənin qabaqcıl nümunələrini tətbiq edəcək».

Onun dediyinə görə, mərkəzin üç həkimi ABŞ-da təhsil alıb və inkişaf pediatriyası bölmələrində ixtisasartırma kursları keçiblər.

Qeyd edək ki, mərkəz dörd nəfərlik həkim briqadasından və həkim rezidentlərdən ibarətdir. Həkim briqadasına ATU-nun əməkdaşları – psixiatr İkram Rüstəmov, pediatr Nigar Sədiyeva, assistent Nərmin Quliyeva və uşaq nevroloqu Rima İbadova daxildir.

# Koxlear implantasiya əməliyyatlarına hazırlıq məktəbi fəaliyyətə başlayır

**Səhiyyə Nazirliyi «Koxlear implantasiya əməliyyatları aparılmasına ehtiyacı olan uşaqların qeydiyyatının aparılması, seçilməsi, müayinə və müalicəsi üzrə Komissiya»ya müraciət edən ailələrin, əməliyyat və ondan sonrakı dövrdə reabilitasiya məsələləri ilə bağlı məlumatlandırılması üçün xüsusi məktəb təşkil edib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında keçirilən ilk dərslərdə tibb üzrə fəlsəfə doktoru A.Abbasova komissiyaya müraciət edən ailələrə uşaqların ağıreşitmə problemləri, onun həlli yolları, koxlear implantasiya əməliyyatı və əməliyyatdan sonrakı dövrdə reabilitasiya məsələləri ilə əlaqədar mühazirələr oxuyacaq. Bu sahədə praktik təlimlərin keçirilməsi də nəzərdə tutulub.

Hazırda məktəbin təşkili üçün lazımi şərait və mütəxəssislərdən ibarət qrup yaradılıb.

BAŞ SPONSOR: HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı-Az1116, 7-ci mkr. Abay Kunanbayev küç. Tel.: (+99412) 5633717, 5629499
Faks: (+99412) 5633425 E-mail: hbcoltd@ultel.net Web: www.hb-med.com
«Tibb qəzeti» redaksiyası tel: (012) 596-06-61

# Tütündən imtina ASAN-laşdı

**1 saylı «ASAN xidmət»Mərkəzində «Tütündən imtina səyyar kabineti» layihəsi həyata keçirilib.**

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) eyniadlı layihəsi çərçivəsində icra olunan, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN Xidmət), İSİM və ASAN Könüllüləri




Təşkilatının birgə təşkil etdiyi aksiya 3 gün davam edib. Həmin müddətdə "Tütündən imtina səyyar kabineti"nə müraciət edən vətəndaşlara həkim-metodist təkcə siqaret çəkənin deyil, ətrafdakıların da sağlamlığına mənfi təsir edən bu zərərli vərdişdən yaxa qurtarmaq üçün yardım göstərib, məsləhətlər verib.

